# Otuz il bundan əvvəl...

***Birinci Qarabağ müharibəsi ulu dağların qoynunda yerləşən Kəlbəcəri də əlimizdən almışdı. İşğal altında olan digər torpaqlarımız kimi, o uca və ucqar yerlərə də həsrət qalmışdıq. Düz 27 il yarımlıq ayrılıqdan sonra, nəhayət, rəşadətli Azərbaycan Ordusu bizi doğma yurdlara qovuşdurdu. 10 noyabr 2020-ci ildə imzalanan sülh müqaviləsinə əsasən, 25 noyabrda Ermənistan silahlı birləşmələri Kəlbəcər rayonunu boşaldıb öz həqiqi sahiblərinə təhvil verməyə məcbur oldu.***



Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü diplomatiyası və xalq-ordu birliyinin təntənəsi hesabına torpaqlarımız düşmən tapdağından azad edilib. Artıq ikinci ildir ki, ah-zarla Kəlbəcərin işğalı gününü qeyd etmir, orada “böyük Qayıdış” naminə aparılan bərpa-quruculuq işlərinə baxıb fərəhlənirik. Amma uğurlar nə qədər böyük olsa da, əzəli torpaqlarımıza olan təcavüzün ağrı-acıları unudulmur, torpaq uğrunda canından keçən qəhrəmanlarımızın xatirəsini daim yad edirik.

İlkin mənası “çay üstündə qala” olan Kəlbəcər qədim insan məskənlərindəndir. Oraya həm də torpağı qızıl olan yer deyilir. Çünki qızıl, civə kimi yeraltı sərvətlərin, mərmərin məskəni sayılır. Bu zonada qalın meşələrin, can dərmanı olan su mənbələrinin çoxluğu xüsusilə diqqət çəkir. Təkcə bir faktı vurğulayaq ki, ölkəmizin mineral su ehtiyatlarının 40 faizə qədəri Şuşa, Laçın və Kəlbəcərin payına düşür. Elə nankor ermənilər həm də buna görə həmin ulu dağlara çoxdan göz dikmişdilər.

1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 gündən çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopter heyətləri özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşublar. 450 nəfərdən çox döyüşçümüz Kəlbəcərdə həlak olub. Amansız düşmən mühasirəsində olan rayonun dinc əhalisinin təxliyəsi baş tutmasaydı, itkilərin sayı-hesabı bilinməzdi.

Amma təxliyə də qurbansız ötüşmədi. Həmin gün Murovdağın bəzi yerlərinə qurşaqdan yuxarı qar yağmışdı, yeganə qurtuluş yolu Murovdağ silsiləsi idi. Rayon əhalisi uşaqları, qoca və xəstələri xilas etmək üçün düşmənlə ölüm-dirim savaşına çıxmışdı. Bu faciədə erməni faşistləri kəlbəcərlilərin neçəsini öldürdülər, neçəsini də əsir götürdülər.

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal edilmiş rayonlarından dərhal çıxarılması tələb olunub. Lakin nə həmin sənəddən, nə də digər üç qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib. Bunu Azərbaycan Ordusu yalnız inişilin payızında 44 günlük zəfər döyüşü ilə, öz gücü hesabına həyata keçirib.

O dövrün qiymətlərinə görə, təcavüz zamanı Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. Rayonun ərazisində qalmış 13 minədək fərdi mənzil, 38 min hektar meşə sahəsi illərlə talan edilib. İşğal nəticəsində rayondan 53 min 340 nəfər adam qovulub, 50 dinc əhali öldürülüb, 20 nəfər isə əsir götürülüb və itkin düşüb. Kəlbəcərin əhalisi 1993-cü ilin yazından ölkəmizin 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində qaçqınlıq şəraitində yaşamağa məcbur olub. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq, 1999-cu ildən Kəlbəcər ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılıb.

Ulu Tanrının böyük lütfü, Azərbaycan Prezidentinin dönməz iradəsi, ordumuzun qəhrəmanlığı və xalqımızın sarsılmaz birliyi sayəsində artıq işğal kabusu arxada qalıb. Qəddimiz düzəlib, gözümüz işıqlanıb, bədxahlar qarşısında şax dururuq.

Xatirimizdədir, ötən il ordumuz Qaragöl ətrafında beynəlxalq hüquqla tanınan sərhədlərdə mövqeləri möhkəmləndirən zaman ermənilər hay-küy saldılar ki, guya, biz onların torpağını zəbt etmişik. O zaman qalib ölkənin müzəffər Prezidenti, Ali Baş Komandan İlham Əliyev üzdəniraq haylara və onların yalan ritorikasına züy tutanlara zəruri mesajını verdi: “Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir... Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca–Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik”.

Bu nailiyyətlər heç də asanlıqla başa gəlməyib. Həm işğal dövründə, həm də zəfər yürüşündə minlərlə şəhid vermişik. Düşmənin Kəlbəcər rayonunun Ağdaban, Başlıbel və digər kəndlərində törətdiyi vəhşiliklər isə heç bir bəyana sığmaz. Ağdaban bir gecədə yer üzündən silinib. Başlıbeldə cəmi 2 ov tüfəngi və əhalini qoruyan əsgərlərdə olan bir neçə avtomat silahla düşmənə müqavimət göstərən döyüşçülərdən ibarət 62 nəfərlik dəstə sona qədər vuruşub. Başlıbelin işğalı zamanı erməni quldurları tərəfindən 27 nəfər güllələnib. Erməni faşistlər II Dünya müharibəsinin veteranı Hüseyn Hüseynovu diri-diri yandırıblar. Kənd sakini, ruhi xəstə Qənaət Ağayevi işgəncə ilə qətlə yetiriblər. 19 nəfər kənd sakini (qadın, uşaq və qoca) isə Ermənistan hərbçiləri tərəfindən girov götürülüb. Düşmən gülləsindən canını qurtara bilən 30 nəfər yenidən dağlara çəkilib və daha 113 gün mühasirə həyatı yaşayıblar. Sağ qalan həmin şəxslər dəfələrlə ölümlə üz-üzə gəlib və günlərlə aclıqsusuzluq çəkiblər. Mühasirədən çıxaraq dörd sutka piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə bilib. Amma bir nəfər – I və II Dünya müharibəsi iştirakçısı Ələsgər Ələsgərov doğma yurdu tərk etməyərək Başlıbeldə qalıb. O, bu günədək itkin sayılır və haqqında hansısa məlumat yoxdur.

...Kəlbəcər rayonunun Laçın kəndində doğulub böyümüş azman söz adamı, şair Məmməd Aslan son nəfəsinə qədər yurd həsrəti çəkənlərdən olub. Səngərli, qalalı dağlara üz tutaraq: “Sənsiz ölsəm, mənə başdaşı vermə”, – deyib. Tez-tez xalq şairi Sabir Rüstəmxanlı ilə, digər dostları ilə eynən Kəlbəcəri xatırladan Yardımlı dağlarına üz tutub, bundan təskinlik tapıb, həsrətini ovudub. O zaman birgə çalışdığımız dövlət televiziyası üçün hazırladığı “Dərədən-təpədən” verilişinin süjetlərini də əsasən dağlarda çəkirdi. Onunla eyni bir şəhərdə–Sumqayıtda yaşadığımız üçün işə birlikdə gedib-gəlirdik. Hər dəfə Kəlbəcərdən danışanda gözləri yol çəkirdi, kövrəldiyi üçün fikirlərini qırıq-qırıq ifadə edirdi. Heyif ki, Məmməd Aslan Kəlbəcərin bu azad günlərini görmədi. Amma nəvəsi söz verib ki, Kəlbəcərə gedən kimi oradan torpaq gətirib şairin məzarı üstünə səpəcək.



Uzun illərin layiqli dövlət dulluqçusu, Nazirlər Kabineti aparatında qaçqınların,məcburi köçkünlərin problemləri, miqrasiya və beynəlxalq təşkilatlarla iş üzrə şöbədə çalışmış Qurban Sadıqov da Kəlbəcərin zillətli günlərini unutmur:

–1988-ci ildən etibarən Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə və işğal siyasəti baş qaldırandan bütün Qarabağda olduğu kimi, Kəlbəcərdə də vəziyyət gərginləşdi. Qədim diyarımız Göyçədən olan soydaşlarımızın bir hissəsi qarlı-çovğunlu qış günlərində piyada uca dağları aşaraq Kəlbəcərə pənah gətirmişdi. Rayonun bütün aidiyyəti qurumları onların qarşılanmasını və yerləşdirilməsini təmin etdi. Bir çox ailəni də biz öz kəndimizdə yerləşdirdik.

Ağdərə yolu bağlanmışdı. Buna görə də o zaman rayon rəhbərliyinin uzaqgörənliyi nəticəsində Murovdağdan çətinliklə keçilən bir yol açılmışdı. Həmçinin Kəlbəcərlə Laçın rayonunu birləşdirən yol da çəkilmişdi. 1992-ci il mayın 18-də Laçın işğal olunanda oranın Kəlbəcərə yaxın kəndlərinin əhalisi də həmin Murovdağ yolu ilə çıxıb canlarını qurtarmışdılar. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə ermənilər Ağdərə rayonunun Çapar kəndinin ərazisindən Ağdaban və Çayqovuşan kəndlərinə hücum edərək kəndlərin keşiyini çəkən mülki şəxsləri güllələmiş, kənddə böyük qırğınlar, talanlar törətmişdilər. Vandallar Ağdabanda Kəlbəcər elinin dədəsi Aşıq Şəmşirin evini də tar-mar etmiş, sənətkarın bütün külliyyatını yandırmışdılar.

1993-cü il aprelin 1-də tapşırıq aldıq ki, tunel ərazisindəki hərbçilərimizə təcili yanacaq aparılmalıdır. Artıq ermənilər ora yaxınlaşırdılar. Yük maşını təşkil etdik və yanacaq götürüb ora yollandıq. Martın ortalarından aprelin 2-si də daxil olmaqla, Kəlbəcərin Ermənistanla və yuxarı Qarabağla həmsərhəd bütün yaşayış məntəqələrinə toplardan və minaatanlardan atəş açılıb yandırılırdı. Vəziyyət çox gərgin idi, tələfat olmasın deyə, mart ayının son günləri artıq əhalini rayon ərazisindən çıxarırdılar. Sonrakı illərdə məcburi köçkünlərimiz taleyin hansı sınaqlarından çıxmadılar?..

Artıq bütün qarabağlı və Şərqi zəngəzurlu soydaşlarımız kimi, kəlbəcərlilər də özlərini qaçqın saymırlar. O müqəddəs yerlər mənfur düşməndən təmizləndikdən sonra, 2020-ci il noyabrın 25-də Ali Baş Komandan xalqa müraciət edərək “Kəlbəcər bizimdir, Qarabağ Azərbaycandır!” söyləyəndə hamı rahatlıqla nəfəs aldı. Beləcə, cənab İlham Əliyev 30 il dədə-baba yurdumuzu talayaraq, daşı daş üstdə qoymayan, maddi-mədəni irs abidələrimizi məhv edən, orada Azərbaycan xalqına məxsus bütün izləri silməyə çalışaraq, zorla doğma Qarabağımıza yiyələnmək istəyən faşist xislətli erməniləri uğurlu “Dəmir yumruq” əməliyyatı ilə diz çökdürdü. El-obaya qələbə sevinci ərməğan etdi, yurdundan didərgin düşən soydaşlarımızın Vətən həsrətinə birdəfəlik son qoydu. 44 günlük müharibə Prezident qətiyyətinin, ordu qüdrətinin və xalq həmrəyliyinin təntənəsi oldu.

Eyni zamanda, bütün dünyaya nümayiş etdirildi ki, heç bir təzyiq və ya təhdid Azərbaycanı özünün milli maraqlarını təmin etməkdən, haqq yolundan çəkindirə bilməz.

Keçən il avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 3260 metr ucalıqda yerləşən Ömər aşırımından ətrafın füsunkar mənzərəsini seyr edib, təzə salınan yol boyunca tunellərin tikintisi ilə tanış olublar. Dövlət başçısı bundan tükənməz qürur duyduğunu bildirib: “Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol, demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gedişgəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi zəfər münasibətilə təbrik etmək istəyirəm!”.

Bəli, indi bütün yollar işğaldan azad olunmuş yurd yerlərinə, dağlara aparır. Daha Kəlbəcərin və illərcə öz həqiqi sahiblərinin nəfəsləri üçün qəribsəmiş digər rayonlarımızın işğal günlərini deyil, xilas günlərini qeyd edirik. Xatırlatmalar isə mənfur qonşularımızın şər əməllərinin heç zaman unudulmaması üçündür.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***